İPƏK YOLU, No.1, 2023, səh.150-158

# AZƏRBAYCAN COĞRAFİ ƏFSANƏLƏRİNİN TƏDQİQİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

**Züleyxa Zeynalova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan

**Xülasə**. Məqalədə Azərbaycan coğrafi əfsanələrinin tədqiqinin nəzəri-metodoloji məsələləri təhlil edilir. Coğrafi əfsanələrdə tarixi coğrafiyanın, təbii mühitin, mədəni-sosial obyektlərin, yaşayış məskənlərinin təsvir edildiyi və onların əfsanə janrının əsas mövzularından biri olduğu göstərilir. Əfsanələrdə coğrafi məkanın və obyektlərin inikasının həm tarixi, həm mifoloji, həm də bədii şəkildə inikas olduğu təsdiq olunur. Coğrafi əfsanələrin tədqiqinin aktuallığı əsaslandırılır.

**Açar sözlər**: əfsanə, mif, mifologiya, folklor, coğrafiya, toponimika, metodologiya.

**THEORETICAL AND METHODOLOGICAL BASES OF THE STUDY OF AZERBAIJANI GEOGRAPHICAL LEGENDS**

**Zuleikha Zeynalova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract**. The paper analyzes the theoretical and methodological issues of studying the geographical legends of Azerbaijan. It is shown that geographical legends depict historical geography, natural environment, cultural and social objects, settlements and that they are one of the main themes of the legend genre. It is confirmed that the depiction of geographical space and objects in legends is combined with their historical, mythological and artistic interpretation. The relevance of the study of geographical legends is substantiated.
**Keywords**: legend, myth, mythology, folklore, geography, toponymy, methodology.

**ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ ИЗУЧЕНИЯ АЗЕРБАЙДЖАНСКИХ ГЕОГРАФИЧЕСКИХ ЛЕГЕНД**

**Зулейха Зейналова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье анализируются теоретико-методологические вопросы изучения географических легенд Азербайджана. Показано, что географические легенды изображают историческую географию, природную среду, культурно-социальные объекты, населенные пункты и являются одной из основных тем жанра легенды. Также показано, что изображение географического пространства и предметов в легендах сочетается с их исторической, мифологической и художественной интерпретацией. Обосновывается актуальность изучения географических легенд.
**Ключевые слова:** легенда, миф, мифология, фольклор, география, топонимика, методология.

Coğrafi əfsanələr müxtəlif xalqların ətraf mühit haqqında təsəvvürlərini, təbiətə, tarixi-mədəni məkana idraki, mifoloji, sakral və poetik münasibətini ifadə edən sinkretik mətnlərdən ibarətdir. Təbii-coğrafi mühit bütövlükdə etnik mədəniyyətə, milli xarakterə və bununla da xalqın etnik dünya mənzərəsinə, inanc və təsir edən mühüm amildir. Bu amil xalqın ənənəvi həyat tərzinə, maddi və mənəvi mədəniyyətə dərindən təsir edərək, onu özünəməxsus xüsusiyyətlərlə aşılayır. Coğrafi mühit, relyef, peyzaj, iqlim, torpaqlar, bitki örtüyü yaşayış məskənlərinə, xalqın yaşayış tərzinə, təsərrüfata və məişətə, etnik psixologiyaya, mifoloji təsəvvürlərə, folklora, tarixi poetikaya, bütövlükdə etnik dünya mənzərəsinə təsir edir. Bu təsir

müxtəlif adət və mərasimlərdə, inanclarda, folklorda və xüsusən də coğrafi əfsanələrdə əks olunur.

Azərbaycan coğrafi əfsanələrinin poetik semantikası və funksional xüsusiyyətləri ilk növbədə tarixi-coğrafi məkanın səciyyəsi ilə müəyyənləşir. Tarixi ərazimizin əlvanlığı, burada müxtəlif iqlim qurşaqlarına aid xüsusiyyətlərin cəmləşməsi xalqımızın həyat tərzinə və eyni zamanda etnik mədəniyyətinə təsir edərək onu rəngarəng çalarlarla zənginləşdirir. Lakin milli coğrafiya ilə yanaşı, ətraf mühit, digər xalqların əraziləri də müxtəlif folklor janrlarında öz inikasını tapır.

Mif və eposda, o cümlədən "Kitabi-Dədə Qorqud"da, məhəbbət dastanlarında bir çox kənar ərazilər, Gürcüstan, Dağıstan, İran, İraq, Çin, Hindistan, Rum və sairə əhəmiyyətli bədii obraz kimi istifadə olunur. Klassik folklor və ədəbi mətnlərimizdə aşkarlanan bu poetik coğrafiyanın xüsusi tədqiqi olduqca vacib və bu vaxta qədər xüsusi öyrənilməmiş məsələdir.

Tədqiqatın indiki mərhələsində coğrafi əfsanələrin tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Coğrafi əfsanələrin tədqiqinin elmi əhəmiyyəti ilk növbədə onunla müəyyənləşir ki, bu mətnlərdə ətraf mühitə obyektiv-tarixi münasibətlə, onun gerçək dərki ilə yanaşı, həm də coğrafi məkanın mifopoetik təfsiri, sakral və dini qavrayışı baş verir.

Beləliklə, ətraf mühit haqqında sakral təsəvvürlər aktuallaşır, toplum mahiyyət etibarı ilə aydın dərk edə bilmədiyi təbiət hadisələrinin özünəməxsus mifopoetik təfsirini verir və beləliklə coğrafiyanın bədii-evristik qavrayışı funksional baxımdan önə çıxır. Bunun təsiri ilə coğrafi əfsanələrin xüsusi janr meyarları formalaşır. Mənşəyinə görə mifoloji qavrayışdan qaynaqlanan coğrafi əfsanələr mifik təsəvvürləri ifadə etsə də, onların poetik semantikası daha geniş məzmun və mənaları ifadə edir.

Coğrafi əfsanələr təbii mühit, landşaft və peyzaj, relyef, yer adları, səma cisimləri, tarixi-mədəni abidələr və sairə ilə bağlı obyektiv məzmun daşıyır, lakin bu məzmunun mətndə ikinci mənalandırılması baş verir. Nəticədə, obyektiv məzmun mifopoetik məna qazanaraq, öz obyektiv-informativ funksiyasını zəiflədir, bir tərəfdən, bədii, digər tərəfdən, sakral məzmun ifadə edir.

Beləliklə, əfsanələr, bir tərəfdən, nağıllardan fərqli olaraq, sırf uydurma poetikasının tələblərinə deyil, həm də real coğrafi obyektlərlə bağlı tarixi məlumat daşıyır. Nəticə etibarilə, burada mifopoetik və bədii-estetik inikas qovuşur, əsərin məzmunu, obrazları, üslubu gerçəkliyi və fantaziyanı ifadə edir.

Bütövlükdə əfsanələr, o cümlədən coğrafi əfsanələr ətraf mühitin əhatəsi baxımından da diferensiasiya olunur. Burada coğrafi məkan həm miqyas, həm də məna baxımından bədii ifadəsini tapır və həm də dinləyici qavrayışında funksionallaşır.

Əhatə baxımından coğrafi əfsanələrdə etnik şüura xas lokal, qlokal və qlobal coğrafi qavrayış növlərini qeyd edə bilərik. Xalqın tarixi yaddaşında, coğrafi əfsanələrdə qorunan bu tip məkan qavrayışının bu istiqamətdə tədqiqi bu mətnlərin özünəməxsus bədii xüsusiyyətlərinin dərki ilə yanaşı, onlarda əks olunan etnik-mifoloji təsəvvürlərinin və milli şüurdakı coğrafi avtoxtonluq və identiklik duyğusunun şərhində də yeni imkanlar açır.

Beləliklə, coğrafi əfsanələrin tədqiqi folklorşünaslıq baxımından əhəmiyyəti ilə bərabər, son illərdə tarixi ərazilərimizə olan iddiaların tutarlı cavablandırılması baxımından da əhəmiyyətlidir. Nəticə etibarilə, coğrafi əfsanələrin mifoloji qaynaqlarının və poetik semantikasının sistemli tədqiqi bu istiqamətdə çoxcəhətli tədqiqatlar üçün müəyyən metodoloji zəmin hazırlayacaq.

Əfsanələrin tədqiqinin bütövlükdə mif və folklor araşdırmalarının ümumi metodologiyası ilə bağlıdır. Mifologiyaya dair tədqiqatların xüsusi əhəmiyyəti əksər əfsanələrin mifoloji mətnlərdən qaynaqlanması ilə müəyyənləşir. Bu xüsusiyyət XIX əsr Avropa filologiyasında formalaşmış mifoloji məktəbin nümayəndələrinin tədqiqatlarında həlledici mövqedədir. F.Şellinq, A. və F.Şlegel qardaşları, "Alman mifologiyası" (Y. və V.Qrimm qardaşları) tərəfindən fəlsəfi əsasları yaradılmış mifoloji məktəb sonradan əsasən iki istiqamət - mifin ilkin mənasının linqvistik cəhətdən yenidən qurulmasına yönələn etimoloji (F.İ.Buslayev); məzmununa görə oxşar olan miflərin müqayisəsi təhlilindən ibarət analoji (V.Şvars, V.Manxardt); miflərin məzmununun təbiət qüvvələrinin ilahiləşdirilməsi şəklində izahına əsaslanan paleolinqvistik (A.Kun və M.Miller) istiqamətlərə bölünmüşdür [8].

Mifoloji məktəbə xas tədqiqat metodologiyası Azərbaycan folklorşünaslığında da aparıcı mövqe tutur. Bundan əlavə "XIX əsrin ikinci yarısında təbiət elmlərinin uğurları, hadisələrin səbəbiyyət və determinizminin rasionalist dərki" ilə əlaqədar meydana gəlmiş, "İ.Ten, De Sanktis, Q.Brandes, M.Mendes-i-Pelayo, V.Şerer, N.S.Tixonravov, A.N.Pıpin, N.İ.Starojenko və b." [8, 11] yaradıcılığında formalaşmış Mədəni-tarixi məktəbin də rolunu xüsusi qeyd edə bilərik.

Mifoloji məktəb Azərbaycan filologiyasında elmi metodologiya olaraq, ilk dəfə Mirzə Kazım bəy (1802-1870) tərəfindən 1848-ci ildə dərc olunmuş "Firdovsiyə görə fars mifologiyası" məqaləsində tətbiq edilmişdir [8, 306-318].

Daha sonra Y.V.Çəmənzəminli, F.B.Köçərli, R.Əfəndiyev, H.Mahmudbəyov, S.Mümtaz, T.Bayraməlibəyov, H.Zeynallı, Ə.Abid, V.Xuluflu, B.Cobanzadə, H.Əlizadə, Ə.Axundov, H.Araslı, M.H.Təhmasib, tərəfindən davam etdirilmişdir. Nəhayət, folklorşünaslarımızda yeni dövr açan M.Seyidovun tədqiqatlarında mifologiyaşünaslıq elmi istiqamət kimi inkişaf etmişdir.

A.Nəbiyev, P.Əfəndiyev, Ş.Cəmşidov, V.Vəliyev, İ.Abbasov, S.Paşayev, B.Abdulla, K.Abdulla, K.Vəliyev, M. Kazımoğlu (İmanov), N.Cəfərov, R.Bədəlov, A. Acalov, A. Hacılı, R.Kamal, R.Qafarlı, S.Rzasoy, Ə.Əsgər, M.Cəfərli, F.Bayat, C.Bəydilli, M.Allahmanlı, M.Əhmədov və başqalarının tədqiqatlarında mifologiya, folklorşünaslıq, eposşünaslıq, ədəbiyyat və folklor əlaqələrinin müxtəlif məsələləri, eyni zamanda əfsanə mətnləri tədqiq olunmuşdur.

Metodoloji səciyyəli bu tədqiqatlarla yanaşı, məhz əfsanələr haqqında da ciddi tədqiqatlar aparılmışdır. Bu baxımdan prof. Sədnik Paşayevin monoqrafik araşdırmasını və topladığı materialı xüsusi qeyd etməliyik. Əfsanələri sistemli tədqiq və təsnif edən, bu janrın

mahiyyətini müqayisəli şəkildə şərh edən alimin əsərləri əfsanələrə dair tədqiqatlarda metodoloji zəmin rolunu oynayır.

A.Acalovun, A.Hacılının, F.Bayatın, R.Qafarovun, S.Rzasoyun mifologiyaya, mif və folklor əlaqələrinə, janrlararası proseslərə aid tədqiqatlar da müvafiq tədqiqatların metodoloji zəmini kimi aktualdır.

Mifoloji mətnlərə və əfsanələrə dair Arif Acalovun tərtibçiliyi ilə dərc olunmuş toplunu və bu topluya olan ön sözü [2], Ramazan Qafarlının mif, əfsanə, nağıl, epos əsasənda şifahi epik ənənədə janrlararası əlaqəyə [13], Seyfəddin Rzasoyun mifologiya və folklor araşdırmalarının nəzəri-metodoloji kontekstinə [15], Sərxan Xavərinin folklorun funksional strukturunun nəzəri-metodoloji kontekstinə [9], , Elçin (İmaməliyev) Qaliboğlunun yaradılış mifləri və Azərbaycan əfsanələrinə [12], Asif Hacılının mifopoetik təfəkkür fəlsəfəsinə [6] və mövzumuza aid olan məsələyə - coğrafi mühitin türk poetikasına təsirinə [7] həsr olunmuş kitab və məqalələri coğrafi əfsanələrin öyrənilməsində həm nərəri, həm də metodoloji rol oynayır. Lakin tədqiqatın yetərliliyi və sistemliliyi üçün folklorumuzun xüsusi fenomeni olan coğrafi əfsanələrin özünəməxsusluğuna, məzmun və forma xüsusiyyətlərinə, semantik, funksional, struktur cəhətlərinə uyğun olan xüsusi metodoloji meyarların ən azı cizgilənməsi və tədricən formalaşdırılmasına ciddi ehtiyac var. Bu məsələ geniş və uzunmüddətli, çoxsəpkili tədqiqat tələb etdiyindən, indiki mərhələdə ilkin olaraq məsələnin qoyuluşu tərində mülahizələrin söylənilməsi də əhəmiyyətlidir.

Məsələni mürəkkəbləşdirən odur ki, həm elmi-nəzəri, həm praktik, həm də son dövrlərin siyasi paradiqmasında milli-ideoloji əhəmiyyət kəsb edən coğrafi əfsanələrə dair xüsusi sistemli tədqiqatlar, demək olar ki, aparılmayıb. Ümumiyyətlə, folklorşünaslığımızda coğrafi paradiqmaya dair yalnız “Kitabi-Dədə Qorqud”un toponimikası və coğrafi arealı haqqında mövcud tədqiqatlardakı müəyyən qeydləri göstərə bilərik.

Eyni vəziyyət əfsanələrin tədqiqində də izlənilir. Coğrafi, toponimik əfsanələr anlayışı müəyyən tədqiqatlarda qeyd olunsa da, xüsusi elmi problem kimi ayrılıqda sistemli tədqiq olunmamışdır. Ümumən, folklorun, ədəbiyyatın coğrafi mühitlə əlaqəsi haqqında sistemli tədqiqat aparılmamışdır. Bu baxımdan prof. Arif Hacıyevin Nizami “Xəmsə”sinin İntibah aləminə həsr olunmuş monoqrafiyasını qeyd edə bilərik [8]. Bu tədqiqatda müxtəlif coğrafi məkanlarla bağlı predmetlərin, əşyaların, toponimlərin, adların, söylənilən əhvalatların, nəql olunan mənzərənin Nizaminin İntibah dühası sayəsində beşliyin poetik aləminə və bütövlükdə ədəbiyyatımıza, o cümlədən folklorumuza daxil olduğu göstərilir. Nizami Gəncəvinin “Xəmsə”sinin poetik coğrafiyası, müxtəlif yerlərə aid predmetlər aləmi, bunların poetik semantikası və funksiyaları təhlil olunur.

Tarixi-coğrafi araşdırmaların metodologiyası, xüsusən avrasiyaçılar tərəfindən türk məkanı haqqında yazılmış əsərlərin və elmi metodologiyanın türkologiyaya, folklorşünaslığımıza tətbiqi imkanları haqqında mülahizələr və tətbiq təcrübəsi ilə prof.Asif Hacılının coğrafi mühit və türk etnik şüuru və poetikasına dair kitab və məqalələrində, tərcümələrində rastlaşırıq. Müəllifin tədqiqatlarında coğrafi təsəvvürlərin türkoloji

araşdırmalarda tətbiqinin metodoloji məsələləri şərh edilir. Məllifin avrasiyaçılığa dair məqalələri və tərcümələri də tarixi coğrafiyanı mədəniyyətin inkişafında həlledici amillərədən hesab edən avrasiyaçı alimlərinin türk coğrafiyası və etnik şüuru barədə tədqiqatlarını əhatə edir [6;7; 8].

Tədqiqatçı Almaz Həsənqızının "Folklorşünaslığa giriş" adlı dərs vəsaitindəki "Folklor və coğrafiya" adlı bölmənində göstərə bilərik [9]. Coğrafi mühit baxımından folklor araşdırmalarının metodoloji məsələlərinə yığcam da olsa xülasə verən A.Həsənqızı qeyd edib: "Finlandiyada isə Y.Kroon tərəfindən (sonradan onun ideyalarını oğlu K.Kroon və A.Aarne davam etdirir) tarixi-coğrafi məktəbin əsası qoyulur. Finlandiyada yarandığı üçün bəzən onu fin məktəbi də adlandırırlar. Bu məktəbin numayəndələri folklor sujetlərinə tarixi hadisələrlə yanaıюэ, cop-rafi muhitin də təsiri oldupunu qəbul edirdilər" [9, 39-40].

Bu və bu kimi tədqiqatlar folklorşünaslıqda yeni araşdırmalar, o cümlədən coğrafi əfsanələrə dair araşdırmalar üçün müəyyən zəmin yaradır, ancaq əfsanə janrının özünəməxsusluğunu tam əhatə etmək üçün yetərli müddəalar vermir. Buna görə də coğrafi əfsanələrin tədqiqinin metodoloji meyarları, bir tərəfdən, ümumən ölkəşünaslıq, diyarşünaslıq tədqiqatlarına, digər tərəfdən, folklorşünaslıq nəzəriyyəsinə əsaslanaraq, tədqiqat prosesinin özündə bir daha korrektə edilməklə formalaşdırıla bilər.

Ölkəşünaslıq baxımından yanaşdıqda nəzərə alınmalıdır ki, xalqın məskunlaşdığı tarixi coğrafiya sadəcə olaraq müəyyən məkan deyil, xalqın həyat tərzinə, məişətə, mətbəxə, tikililərin memarlığına təsir etməklə bərabər, coğrafi mühit həm də xalqın mənəvi aləmi, milli özünüdərk, etnik dünya mənzərəsi ilə bağlanır, təbiət, iqlim, relyef mənən mənimsənilir və mənəvi varlıq, doğma yurd, ata ocağı vətən olaraq qavranılır. Bu mənada, coğrafi mühit folklorda, ədəbiyyatda, inanclarda, milli psixologiyada, xalqın poetik təsəvvürlərində, dünya mənzərəsində etnik xarakterdə təzahür edir. Folklorda bu amillər xalq yaradıcılığının əksər janrlarında – nəğmələrdə, rəvayətlərdə, epik, lirik janrlarda, şeir növlərində, atalar sözlərində, deyimlərdə öz bədii ifadəsini tapır.

Azərbaycan coğrafiyası xeyli rəngarəng, 11 iqlimdən doqquzunu ehtiva edən, fərqli etnoqrafik mühitlərin yaranmasına şərait yaradan əraziyə malik olduğuna görə, ölkəni təşkil edən tarixi-mədəni bölgələrin etnoqrafik mühiti də yerli coğrafiyaya uyğun çeşidli formalardadır. Bu isə həm də əhalinin zaman və məkan, açıq və qapalı, yuxarı və aşağı, isti və soyuq, uzaq və yaxın kimi təsəvvürlərinə də təsir edir.

Eyni zamanda Azərbaycan ərazisi müxtəlif sivilizasiyaların kəsişdiyi məkanda yerləşir və müxtəlif xalqların təmasda olduğu multikultural mühitə malikdir. Bu polikultur coğrafi-mədəni mühitdə müxtəlif dövrlərə və mədəniyyətlərə xas məfhumlar çulğaşsa da, demoqrafiyanın əsasını türk əhalisi təşkil edir və folklor mətnləri, o cümlədən əfsanələr də türk mədəniyyəti tipologiyasına uyğundur. Bu cəhət lirik mətnlərdə də izlənilir və coğrafi məkanın qədim dövrlərdən türk toplumu ilə əlaqədar olmasını təsdiqləyir:

Mən aşıq Hun dağına,
Gəl, çıxaq Hun dağına.
Oğlu ölən analar,
Yaş tökər qundağına. [9, s.120].

Yuxarıdakı bayatıda hun dövründən gələn toponimika həmin etnotoponimlə bağlı əfsanələrin də eyni məcradan qaynaqlandığını təsdiqləyir. Epik mətnlər, o cümlədən qəhrəmanlıq və məhəbbət dastanlarının, nağılların və eləcə də əfsanələrin poetik coğrafiyası, bir tərəfdən, ərazimizdəki tarixi proseslərin qaynaqlarını, digər tərəfdən, "Kitabi-Dədə Qorqud" kimi ortaq epik mətnlərin tarixi coğrafiyasını və bununla yazılı variantının yaranma arealının da müəyyənləşməsinə imkan verir. F.Köprülü, Ə.Cəfəroğlu, M.Ə.Rəsulzadə, Ş.Cəmşidov kimi görkəmli qorqudşünas alimlər mətndəki Dərbənd, Qazılıq dağı, Əlincə qalası, Düzmürd qalası, Trabzon, Tuman qalası kimi toponimlərə əsaslanaraq eposun məhz Azərbaycan ərazisində yarandığını təsdiqləyirlər [9, s.121].

Azərbaycan tarixi ticarət yollarının üzərində yerləşdiyindən folklorumuzda uzaq diyarların – Çin, Hindistan, İraq, İran, Misir, Urum, Firəngistan, Xorasan, Buxara, Səmərqənd kimi yerlərin də adı çəkilir. Əfsanələrimizin coğrafi arealı da yalnız yerli və yaxın məkanlarla və personajlarla məhdudlaşmır. Deyək ki, Beyləqanda yerləşən Cərcus peyğəmbərə aid edilən məzarlıq İncildə xatırlanan Georgiusla bağlıdır. Ancaq bu əfsanəvi obraz məhz Azərbaycanla bağlı müqəddəs kimi təqdim edilir və müxtəlif əfsanəvi rəvayətlərdə xatırlanır.

Qeyd edək ki, müəllif haqlı olaraq tarixi coğrafiyanın bədii mətnin poetik məkanı ilə eyniləşdirilməsinin yanlış olduğunu da vurğulayır və bu baxımdan həm epik, həm lirik folklor mətnlərində gerçək coğrafiyanın bədii inikasının özünəməxsusluğunun nəzərə alınmasının vacibliyini vurğulayır, bayatı və məhəbbət dastanlarının tarixi coğrafiyanı daha dolğun əks etdirdiyini təsbitləyir [9, s.121-123].

Lakin mifoloji qaynaqlara daha çox meylli olan, mifik qavrayışı əks etdirən klassik eposda, oğuznamələrdə, qəhrəmanlıq eposunda tarixi coğrafiya bədii transformasiyaya uğrayır və buna görə də tədqiatçı A.Həsənqızı haqlı olaraq ki, coğrafi məlumatın və onun bədii inikasının eyniləşdirilməsinin "sadəlövlük" olacağını bildirir [9, s.24]. Bu mövqe prof.Əfzələddin Əsgərin oğuznamələrin epik coğrafiyasına həsr olunmuş tədqiqatında da təsbitlənir: "... şifahi epik mətndə coğrafiyanın gerçəkləşməsi müəyyən qanunauyğunluqlara tabedir. Unutmaq olmaz ki, heç bir dastanda sosiumun coğrafiyası xüsusi şəkildə təsvir olunmur" [5, s.26].

Bir sıra mifoloji əfsanələrdə əhvalat uzun illər islam aləminin, xilafətin paytaxtı olmuş Bağdadda cərəyan edir. Deyək ki, vəziri tərlan, vəkili qırqovul, məsləhətçisi qartal olan Şahişonqar adlı quşlar padşahı haqqında əfsanə alleqorik şəkildə insani münasibətlər, adil idarəçilik üsulu, hökmdarın müdrikliyi haqqında təmsil sayaq mətndir. Əhvalatın Bağdadla bağlanması isə əsərin məzmununa ümumiləşmiş geniş məna verilməsi zərurətindən doğur [3, s.80].

Lakin əfsanələrin, o cümlədən coğrafi əfsanələrin əhəmiyyətli bir hissəsi ailə-məişət mövzularına həsr olunub, ancaq bu əsərlər ailə güzəranı və münasibətləri haqqında olsa da, mahiyyət etibarilə daha geniş, təsirli məqamlara toxunur. Pirsultanli Sədnik Paşanın təqdim etdiyi “Daş gəlin” bu baxımdan səciyyəvidir:

“Deyilənə görə, bir gəlin körpəsinin ağlamasına məhəl qoymadan paltar yuyurmuş. Bu vaxt gəlinin atası yolla ötüb gedirmiş. Qızının laqeydliyinə dözməyib qarğış edir:

- Ay səni daşa dönəsən, körpəni kiritsənə!

Ata bu qarğışdan sonra dönüb baxır və dəhşətli bir mənzərənin şahidi olur. Gəlin körpəsi də qucağında, əlinin biri paltar teştinə uzanmış vəziyyətdə daşa dönüb. Ata təəssüflənsə də artıq gec olur.

İndi çoxları bu daşa baxanda:

- Ata nəfəsi ağırdır, onun qarğışı övladı daş da edər, quş da – deyirlər”.

Digər bir mətndə - lalə gülü haqqında əfsanədə isə bu gülün əvvəl gözəl bir qız olması, kasıb oğlanı sevməsi, atasının onu kasıba verməyəcəyini bildiyindən, Allahdan bu həsrətin bitməsini arzulayır və dönüb çiçək olması söylənilir. Burada nəbatatla bağlı əhvalat sosial ədalətsizliyə işarə edir [3, s.85]. Nəbatatla bağlı narbənd, ardıc, söyüd və digər bitkilər haqqında əfsanələr isə qədim türk mifologiyasında mühüm yer tutan Dünya ağacına nəşət edir. Bu kimi mətnlərin şərhində mifoloji təfsir, əsərlərin alt mənalarının, mifoloji panteon, arxetiplərlə bağlılığına daha çox diqqət yetirilməlidir.

Coğrafi əfsanələrə dağ, dərə, çay, relyef, peyzaj, astral obyektlərlə bərabər, təbiət hadisələri, təqvim, iqlim, təbii sınırlar və sairə kimi anlayışlar da daxildir. Onu da qeyd edək ki, bu məfhumlar həm mif, həm də əfsanə mövzusu ola bilər. Buna görə də bir sıra toplularda, i cümlədən Sədnik Paşayevin [14] və Arif Acalovun [1; 3] tərtib etdiyi toplularda ətraf mühitlə bağlı mətlər bəzən mif və əfsanə başlığı altında birləşdirilir.

Arif Acalovun toplusunun sonuncu nəşrində [3] coğrafi mif və əsatirə aid edə bilinəcək mətnlər “Kosmoqonik miflər”, “Kosmik qəza. Tufan”, “Təqvim mifləri”, “Heyvanların və bitkilərin mənşəyi”, “Müqəddəs daşlar. Daşa dönənlər” yarımbaşlıqlarında və “Mifoloji rəvayət və əfsanələr”, “Mifoloji inamlar” bölmələrində cəmləşib.

Əfsanələrin görkəmli tədqiqatçısı prof. Pirsultanlı Sədnik Paşanın toplayıb dərc etdiyi topluda [14] isə coğrafi əfsanələr “Dağ, daş və qayalar”, “Bulaq, çay və dəniz”, “Çiçək və gül əfsanələri”, “Quş və heyvanlar haqqında”, “Ay, gün və Dədəgünəş”, “Qədim qalalar” kimi bölmələrdə qruplaşdırılmışdır və əslində iri həcmli toplunun böyük bir hissəsini təşkil edir.

Bu tərtibat meyarları mətnlərin mahiyyətinə uyğundur və bir daha coğrafi əfsanələrin evristik baxımdan mif, gerçək və bədiiyyat arasında qərarlaşdığını təsbitləyir.

Bir sıra əfsanə mətnləri gerçək coğrafi məkan, tarixi tikililər, inanc yerləri, məzarlıqlar, tarixi şəxsiyyətlərlə bağlanır. Bu halda isə coğrafi diyarşünaslığın tarixi-mədəni təhlil metodu mifoloji tədqiqlə çulğaşmalı, əfsanədə təsvir olunan coğrafi obyektlər gerçəkliyə uyğun və həm

də mifopoetik aspektdə təhlil edilməlidir. Bu baxımdan Azərbaycan coğrafi əfsanələrinin tədqiqində mətnlərdə əks olunmuş obyekt və predmetlərin, hadisə və əhvalatların gerçək tarixi məzmunu və eyni zamanda mifoloji qaynaqları və poetik semantikası vəhdətdə təhlil olunmalıdır.

Coğrafi əfsanələrin tədqiqində metodiki yanaşma ilə yanaşı, araşdırmanın problematikası da mövzunun özünəməxsusluğuna uyğun olmalı, kompleks səciyyə daşımalıdır. Arxaik coğrafi təsəvvürlər mifoloji qavrayışa əsaslandığından, coğrafi əfsanələrin də təhlili ilk növbədə bu mətnlərin mifoloji qaynaqlarına, o cümlədən, təbiət obyektləri və həm də coğrafi-mədəni obyektlər, yəni tikililər, məskənlər və sairə ilə bağlı mifik təsəvvürlərin əfsanə mətnində ifadəsinin təhlilinə yönəlməlidir.

Digər bir aspekt isə bədii mətn olan coğrafi əfsanələrdə gerçək coğrafiyanın poetik inikası, bədii təfsiri, estetik-bədii dünya mənzərəsi aşkarlanaraq təhlil edilməlidir. Bu təhlil həm də islam dininə xas olan coğrafi anlayışları, sağ və sol, yuxarı və aşağı, ön və arxa və digər bu kimi ikili məkan əksliklərinin təfsirini nəzərdə tutmalıdır. Coğrafi əfsanələrin tədqiqinin növbəti müstəvisi əfsanənin dil qatında təzahür edən etnik-mədəni konseptlərin şərhinə və mətn sistemində mövqeyinin izahına yönəlməlidir. Nəhayət, coğrafi əfsanələrin digər əfsanə növlərinə nisbətən real mühitlə daha çox bağlı olduğunu nəzərə alaraq, bu mətnlərdə qorunan tarixi-mədəni məzmun qatı təhlil edilməlidir.

Beləliklə, Azərbaycan coğrafi əfsanələrinin tədqiqi bu mətnlərdə mifoloji təsəvvürlərin təzahürünün və poetik semantikasının, gerçək məzmununun araşdırılmasını zəruri edən prosesdir. Coğrafi əfsanələrdə təbii və tarixi-mədəni mühitin mifoloji, bədii-estetik baxımdan kompleks təhlili bütövlükdə türk tarixi poetikasının müəyyən metodoloji səpgilərinin də araşdırılmasına təkan verə bilər. Digər tərəfdən etnik şüura və folklor ənənəsinə xas coğrafi qavrayış növlərinin aşkarlanmasına və digər janrlar üzrə də müfəssəl tədqiqinə şərait yaradar. Nəticə etibarilə, coğrafi əfsanələrin mifoloji qaynaqlarının və poetik semantikasının sistemli tədqiqi bu istiqamətdə çoxcəhətli tədqiqatlar üçün müəyyən metodoloji zəmin ola bilər.

## Ədəbiyyat

1. Azərbaycan mifoloji mətnləri. Tərtib edəni, ön söz və şərhlərin müəllifi A.Acalov, B., Elm, 1988.
2. Acalov, A. Ön söz – Bakı: Azərbaycan mifoloji mətnləri. Elm, 1988, 196 s.
3. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı, Şərq-Qərb, 2005, 304 s.
4. Əliyev R. Mifoloji şüurun bədii spesifikası. Bakı: Qartal, 2001, 100 s.
5. Əsgər, Ə. Oğuznamədə epik coğrafiyanın transformasiyası, “Elmi axtarışlar”, Bakı: Nurlan, 2008, sayı 2.
6. Hacılı, A. Mifopoetik təfəkkür fəlsəfəsi. Bakı: Mütərcim, 2002, 164 s.
7. Hacılı A. Coğrafi mühit və türk poetikası. «Dədə Qorqud», 2004, № 3.
8. Hacıyev A. Ədəbiyyatşünaslığın tarixi və metodologiyası. Mühazirə tezisləri. Bakı: Mütərcim, 2011, 32 səh.

9. Xavəri S. Folklorun funksional strukturu: problemin nəzəri-metodoloji konteksti, Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2017, №3, s.115-119.
10. İmaməliyev E.Q. Türk yaradılış mifləri və Azərbaycan əfsanələri. Filologiya üzrə fəlsəfə doktoru dissertasiyası, Bakı, 2016, 153 s.
11. Kamal (Rəsulov) R. "Kitabi-Dədə Qorqud"un poetikası: metaforik arxetiplər: filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı. Bakı, 2016, 21 s.
12. Kazımoğlu (İmanov) M. Folklor həm keçmiş, həm də bu gündür (məqalələr). Bakı: Elm və təhsil, 2014, 194 s.
13. Qafarlı R. Mif, əfsanə, nağıl və epos (şifahi epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU nəşri, 2002, 758 s.
14. Pirsultanlı S. P. Azərbaycan türklərinin xalq əfsanələri. B., Azərnəşr, 2009, 485 s.
15. Rzasoy, S. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. Bakı: Nurlan, 2008, 188 s.
16. Seyidov, M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
17. Берков В.Ф. Методология науки. Общие вопросы. Минск: РИВШ, 2009, 396 с.
18. Гаджиев А. Ренессансный мир "Хамсе" Низами Гянджеви. Баку: «Мутарджим», 2000, 287 с.
19. Казымбек М. Мифология персов по Фирдоуси. Изб. произведения. Б., Элм, 1985, с. 306-318